AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin*
*22.08 2024-cü il tarixli*
*3-28/3-2-5407/2024 nömrəli əmrinə*
*121 nömrəli əlavə*

ƏSLİ İLƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI * ELM və TƏHSİL NAZİRLİYİ *
VƏTƏNDAŞLARA XİDMƏT VƏ SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ

# "Dərzi"

## ixtisası üzrə

## Təhsil Proqramı (Kurikulum)

**Bakı – 2024**

## “Dərzi” ixtisası üzrə Təhsil Proqramı (Kurikulum)

1. **Təsnifat üzrə ixtisasın şifri (kodu):** 030818
2. **Məşğulluq təsnifatında kodu:** 7531
3. **Milli kvalifikasiyalar səviyyəsi:** 4
4. **Peşə təhsili pilləsi:** Texniki peşə təhsili
5. **İxtisasın qrupu:** Tikiş istehsalatı
6. **İxtisasın əhatə etdiyi sahələr:** İlkin tələbat və ərzaq mallarının texnologiyası
7. **Qəbul şərtləri:** Ən azı ümumi orta təhsil
8. **Tədris müddəti:** Tam orta təhsil bazasından: 1 il, ümumi orta təhsil bazasından: 2, 3 il.
9. **Attestasiya:** Tələbələrin ixtisas modulları üzrə qiymətləndirilməsi “Peşə təhsili pilləsində təhsilalanların attestasiyasının aparılması Qaydası”na, ümumtəhsil fənləri üzrə attestasiya “Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması Qaydası”na uyğun həyata keçiriləcək.
10. **Ümumtəhsil** fənləri üzrə tədrisin təşkili tam orta təhsil səviyyəsində tədrisin təşkili normativlərinə uyğun həyata keçirlir.

**Peşənin təsviri, xüsusiyyəti, inkişaf perspektivləri**

Müştərinin sifarişinə uyğun olaraq müxtəlif növ parçalardan istifadə edərək tələb olunan paltar formalarını və növlərini ölçülərə uyğun hazır edir, eyni zamanda paltarların bərpa işlərinin yenidən hazırlanmasını və çeşidləməni həyata keçirir və paltarlar üzərində tamamlama işlərini həyata keçirməyi bacarır.

Mütəxəssis qarşısına parçaları, onların xüsusiyyətlərini, istifadə olunan materiallar, alət və avadanlıqların iş prinsiplərini bilmək, eləcə də, sifarişi müəyyən olunan vaxt ərzində hazırlamağı bacarmaq tələbləri qoyulur.

**Məşğulluq imkanları:**

Təhsili başa vurduqdan sonra mütəxəssis tikiş evi, modalar evi, dərzilik atelyelərində və dərzi emalatxanalarında xidmət edə bilər. Təcrübə qazanmaqla rəhbər vəzifələrə və təlim keçməklə sənaye istehsalı üzrə digər vəzifələrə keçid imkanları vardır. Əlavə yaradıcılıq bacarığı olan şəxslər dizaynerlərə köməkçi təyin oluna bilər.

**Peşə üzrə səriştə səviyyəsi:**

| Biliklər | Bacarıqlar | Müstəqillik və məsuliyyət |
|---|---|---|
| • Parçalar və onların səciyyəvi xüsusiyyətləri;<br>• Paltar və parçalar ilə bağlı milli ənənələr;<br>• Tikiş avadanlıqları haqqında biliklər;<br>• Peşə ilə bağlı terminologiya;<br>• Çertyoj çəkməyi bilmək;<br>• Ölçü standartları;<br>• Sadə riyazi biliklər;<br>• Müxtəlif növ tikişməhsullarının hazırlanması üsulları;<br>• Dərzilikdə istifadə olunan bütün müvafiq maşın və əl alətlərinin funksiyaları;<br>• Parça dizaynı üzrə əsas anlayışlar;<br>• Hesablama aparmaq və planlaşdırmaq üçün sadə riyazi biliklər;<br>• Şifahi və yazılı Azərbaycan dili bilikləri;<br>• SƏTƏM (Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf mühitin mühafizəsi). | • Elektron cihazlardan istifadə etmək bacarığı;<br>• Müştərinin dəqiq ölçülərini götürmək;<br>• Aksesuarlardan və parçalardan səmərəli istifadə etmək bacarığı;<br>• Effektiv istehsal prosesi üçün müvafiq materiallar seçmək;<br>• Müştəriyə texniki məlumat vermək;<br>• Əl və CAD vasitəsi ilə xammaldan səmərəli şəkildə nümunələr hazırlamaq;<br>• Əl və ya maşın vasitəsilə kəsmə və tikmə işləri aparmaq;<br>• Əl işləri ilə prosesi tamamlamaq;<br>• Planlaşdırma və təşkilati bacarıq;<br>• Bir neçə tapşırığı eyni anda etmək bacarığı; | • Xarici görünüşü səliqəli və işdə nizamlı olmaq;<br>• Etibarlı, məsuliyyətli və sədaqətli olmaq və işə dair öhdəlikləri yerinə yetirmək;<br>• Peşəkar, prinsipial, dürüst, dəqiq, eləcə də səbrli və təmkinli olmaq;<br>• Dəyişən iş saatlarına uyğunlaşmaq;<br>• Təşəbbüskar və yenilikçi olmaq;<br>• Estetik zövqlü olmaq;<br>• Müştəri yönümlü olmaq;<br>• Sahibkarlıq yanaşması və baxışları;<br>• Peşəkarlıq səviyyəsini daim artırmaq üçün ömürboyu öyrənməyə meyilli olmaq;<br>• Moda aləmindəki yenilikləri daim izləmək və iş prosesini yaxşılaşdırmaq üçün təkliflər vermək;<br>• Təşviqat və təqdimat bacarıqları; |

| | | |
|---|---|---|
| | • Nəticələrə nəzarət etmək və işin keyfiyyətinə cavabdeh olmaq;<br>• Yazılı və şifahi ünsiyyət;<br>• Xarici dil bacarıqları;<br>• Problemləri həll etmək;<br>• Vaxtın idarə olunması;<br>• Prosesləri planlaşdırmaq və hesabat vermə;<br>• Müstəqil və komanda daxilində işləmək. | • Kompüterdə təqdimatlar hazırlamaq. |

**Peşə üçün spesifik tələblər:**

İşin xüsusiyyətindən asılı olaraq dəyişkən iş saatları və ya gərgin iş zamanı uzadılmış qrafiklə işləmək, aşağı səviyyədə səs-küyə dözümlülük göstərmək, son dərəcə dəqiqlik və keyfiyyət nümayiş etdirmək tələb olunur.

**İxtisası tədris edəcək pedaqoji heyətə qoyulan tələblər:**

“Dərzi” ixtisası üzrə mühəndis-pedaqoji heyət üzvünün müvafiq peşə-ixtisas sahəsi üzrə baza təhsili (ali, orta ixtisas) və ixtisas üzrə stajı azı 5 il, istehsalat və ya 1 il pedaqoji təcrübəsi olmalı, tədris etdiyi modullar (istehsalat təlimi ustalarının təhkim olunduğu qrupun) baza ixtisasına uyğun gəlməlidir. Pedaqoji heyət üzvü tələbələr və həmkarları ilə ünsiyyət qurmaq bacarığına, əlaqələndiricilik, istiqamətvericilik xüsusiyyətlərinə malik olmalıdır. Tələbələrin ixtisasları üzrə dövrün tələbatına uyğun elmi-nəzəri bilikli mütəxəssis, tədqiqatçı kimi yetişmələrinə çalışmalı, müasir texnika, yeni istehsal və pedaqoji, innovativ təlim metodlarından, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etmək bacarığı aşılamalıdır

## İxtisasın tədris planı- modulların siyahısı

| İxtisasın adı: Dərzi | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Təhsil müddəti: 1 il (tam orta təhsil)** | | | | | | | | |
| **№** | **Bölmələr, təhsil sahələri, modullar (fənlər)** | **saatların miqdarı** | **Həftəlik dərs saatlarının miqdarı** | | | | | |
| | | | **I** | **II** | | | | **məsləhət saatları** |
| | | | **15** | **10** | **3** | **9** | **1** | |
| | **2** | **3** | **4** | **6** | **7** | **8** | **9** | |
| | | | | | | | | |
| **1** | Fiziki tərbiyə | 25 | 1 | 1 | | | | |
| **2** | Hesablama əməliyyatları | 30 | 2 | | | | | |
| **3** | Şəxsi inkişaf və karyera planlaşdırması | 30 | | 3 | | | | |
| **4** | Sahibkarlıq | 45 | 3 | | | | | |
| **5** | İKT-dən istifadə | 45 | 3 | | | | | |
| | | **175** | **9** | **4** | | | | |
| | | | | | | | | |
| | **Peşə-ixtisas fənləri (modulları), nəzəri** | **410** | **16** | **17** | | | | |
| **6** | İş şəraitində əmək, təhlükəsizlik və sağlamlıq qaydaları | 25 | 1 | 1 | | | | |
| **7** | Tikiş məmulatlarının materialşünaslığı | 50 | 2 | 2 | | | | |
| **8** | Tikiş istehsalının avadanlığı | 40 | 2 | 1 | | | | |
| **9** | Geyimin bədii layihələndirilməsi | 40 | 2 | 1 | | | | |
| **10** | Tikiş məmulatlarının hazırlanma texnologiyası | 80 | 2 | 5 | | | | |
| **11** | Tikiş məmulatlarının konstruksiyası | 55 | 3 | 1 | | | | |
| **12** | Dərzi işinin planlaşdırılması | 40 | 2 | 1 | | | | |
| **13** | Biçmə və geyimin hazırlanma qaydaları | 40 | 2 | 1 | | | | |
| **14** | Tamamlama və təqdimat işləri | 40 | | 4 | | | | |
| | **İstehsalat təlimi (praktik modullar)** | **395** | **10** | **14** | **35** | **0** | | |
| | | | | | | | | |
| | **İstehsalat təcrübəsi** | **360** | | | | 40 | | |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | **Tələbələrin maksimum məcburi dərs yükü** | **1340** | **35** | **35** | **35** | **40** | | |
| | **Məsləhət** | **20** | | | | | | |
| | **YEKUN** | **1360** | **35** | **35** | **35** | **40** | | |

| **İxtisasın adı: Dərzi (dual təhsil)** | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **Təhsil müddəti: 1 il (tam orta təhsil)** | | | | | | | |
| **№** | **Bölmələr, təhsil sahələri, modullar** | **saatların miqdarı** | **həftəlik dərs saatlarının miqdarı** | | | | |
| | | | **I** | | **II** | | **məsləhət** |
| | | | **15** | **15** | **7** | **1** | |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | |
| **1** | Hesablama əməliyyatları | 30 | 2 | | | | |
| **2** | Şəxsi inkişaf və karyera planlaşdırması | 30 | 2 | | | | |
| **3** | Sahibkarlıq | 45 | | 3 | | | |
| **4** | İKT-dən istifadə | 45 | 3 | | | | |
| | | **150** | **7** | **3** | **0** | 0 | |
| | **Peşə-ixtisas modulları, nəzəri** | **375** | **14** | **11** | | | |
| **5** | İş şəraitində əmək, təhlükəsizlik və sağlamlıq qaydaları | 30 | 2 | | | | |
| **6** | Tikiş məmulatlarının materialşünaslığı | 45 | 3 | | | | |
| **7** | Tikiş istehsalının avadanlığı | 30 | 1 | 1 | | | |
| **8** | Geyimin bədii layihələndirilməsi | 45 | 2 | 1 | | | |
| **9** | Tikiş məmulatlarının hazırlanma texnologiyası | 75 | 2 | 3 | | | |
| **10** | Tikiş məmulatlarının konstruksiyası | 60 | 2 | 2 | | | |
| **11** | Dərzi işinin planlaşdırılması | 30 | 1 | 1 | | | |
| **12** | Biçmə və geyimin hazırlanma qaydaları | 30 | 1 | 1 | | | |
| **13** | Tamamlama və təqdimat işləri | 30 | | 2 | | | |
| | **İstehsalat təlimi (praktik modullar)** | **420** | **14** | **14** | | | |
| | **İstehsalat təcrübəsi** | **400** | | **8** | **40** | | |
| | **Tələbələrin maksimum məcburi** | **1345** | **35** | **36** | **40** | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **dərs yükü** | | | | | | |
| | **Məsləhət saatları** | **20** | | | | | |
| | **YEKUN** | **1365** | **35** | **36** | **40** | | |
| **Qeyd:** Dual təhsil proqramları tətbiq edilən peşə təhsil müəssisələri və qrupların siyahısı Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.<br>Qarşılıqlı razılıq və maddi-texniki baza imkan verdikdə istehsalat təlimi tam olaraq və ya bir hissəsi işəgötürən müəssələrdə təşkil edilə bilər. | | | | | | | |

| **İxtisasın adı: Dərzi** | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Təhsil müddəti: 2 il (ümumi orta təhsil)** | | | | | | | | | | |
| **№** | **Bölmələr, təhsil sahələri, modullar (fənlər)** | **saatların miqdarı** | **Yarım illər üzrə həftəlik dərs saatlarının miqdarı** | | | | | | | |
| | | | **I kurs** | | | **II kurs** | | | | **məsləhət saatları** |
| | | | **I** | **II** | | **I** | **II** | | | |
| | | | **15** | **20** | **3** | **15** | **10** | **12** | **1** | |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** | **8** | **9** | **10** | **11** |
| **1** | Çağırışaqədərki hazırlıq | 60 | 1 | 1 | | 1 | 1 | | | |
| **2** | Fiziki tərbiyə | 60 | 1 | 1 | | 1 | 1 | | | |
| **3** | Ana dilində ünsiyyət | 30 | 2 | | | | | | | |
| **4** | Xarici dildə ünsiyyət | 45 | 3 | | | | | | | |
| **5** | Hesablama əməliyyatları | 30 | | | | 2 | | | | |
| **6** | İKT-dən istifadə | 45 | 3 | | | | | | | |
| **7** | Peşə etikası | 40 | | 2 | | | | | | |
| **8** | Sahibkarlıq | 40 | | 2 | | | | | | |
| **9** | Şəxsi inkişaf və karyera planlaşdırması | 30 | | | | | 3 | | | |
| **10** | Estetika və mədəni özünüifadə | 30 | | | | 2 | | | | |
| | **Baza modulları üzrə cəmi** | **410** | **10** | **6** | **0** | **6** | **5** | **0** | **0** | **0** |
| | | | | | | | | | | |
| | **Peşə-ixtisas fənləri (modulları), nəzəri** | **895** | **14** | **15** | **0** | **15** | **16** | | | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **11** | İş şəraitində əmək, təhlükəsizlik və sağlamlıq qaydaları | 50 | 2 | 1 | | | | | | |
| **12** | Tikiş məmulatlarının materialşünaslığı | 105 | 3 | 3 | | | | | | |
| **13** | Tikiş istehsalının avadanlığı | 105 | 3 | 3 | | | | | | |
| **14** | Geyimin bədii layihələndirilməsi | 105 | 3 | 3 | | | | | | |
| **15** | Tikiş məmulatlarının hazırlanma texnologiyası | 165 | 1 | 2 | | 4 | 5 | | | |
| **16** | Tikiş məmulatlarının konstruksiyası | 115 | 1 | 2 | | 2 | 3 | | | |
| **17** | Dərzi işinin planlaşdırılması | 75 | | | | 3 | 3 | | | |
| **18** | Biçmə və geyimin hazırlanma qaydaları | 100 | 1 | 1 | | 3 | 2 | | | |
| **19** | Tamamlama və təqdimat işləri | 75 | | | | 3 | 3 | | | |
| | | | | | | | | | | |
| | **İstehsalat təlimi (praktik modullar)** | **900** | **11** | **14** | **35** | **14** | **14** | | | |
| | **İstehsalat təcrübəsi** | **480** | | | | | | **40** | | |
| | **Tələbələrin maksimum məcburi dərs yükü** | **2685** | **35** | **35** | **35** | **35** | **35** | **40** | | |
| | **Məsləhət saatları** | **20** | | | | | | | | |
| | **YEKUN** | **2705** | **35** | **35** | **35** | **35** | **35** | **40** | | |

| **İxtisas: Dərzi** | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Təhsil müddəti: 3 il (ümumi orta təhsil bazası)** | | | | | | | | | | |
| **№** | **Modullar/Fənlər** | **Saatların miqdarı** | **Kurslar və yarımillər üzrə həftəlik saatların miqdarı** | | | | | | | **məsləhət saatları** |
| | | | **I kurs** | | **II kurs** | | **III kurs** | | | |
| | | | **18** | **20** | **18** | **20** | **15** | **10** | **12** | |
| | | | | | | | | | | |
| | **Ümumtəhsil fənləri** | | | | | | | | | |
| **1** | Azərbaycan dili | 268 | 3 | 3 | 3 | 3 | 2 | 1 | | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **2** | Xarici dil | 334 | 4 | 4 | 4 | 4 | 2 | | | |
| **3** | Riyaziyyat | 344 | 4 | 4 | 4 | 4 | 2 | 1 | | |
| **4** | İnformatika | 152 | 2 | 2 | 2 | 2 | | | | |
| **5** | Azərbaycan tarixi | 76 | 1 | 1 | 1 | 1 | | | | |
| **6** | Fizika | 76 | 1 | 1 | 1 | 1 | | | | |
| **7** | Biologiya | 76 | 1 | 1 | 1 | 1 | | | | |
| **8** | Coğrafiya | 76 | 1 | 1 | 1 | 1 | | | | |
| **9** | Kimya | 76 | 1 | 1 | 1 | 1 | | | | |
| **10** | Fiziki tərbiyə | 152 | 2 | 2 | 2 | 2 | | | | |
| **11** | Çağırışaqədərki hazırlıq | 101 | 1 | 1 | 1 | 1 | 1 | 1 | | |
| | **Ümumtəhsil fənləri üzrə cəmi** | **1731** | **21** | **21** | **21** | **21** | **7** | **3** | **0** | |
| | | | | | | | | | | |
| | **Baza modulları** | | | | | | | | | |
| **12** | Peşə etikası | 40 | | | | 2 | | | | |
| **13** | Şəxsi inkişaf və karyera planlaşdırılması | 30 | | | | | | 3 | | |
| **14** | Sahibkarlıq | 40 | | 2 | | | | | | |
| **15** | İKT-dən istifadə | 45 | | | | | 3 | | | |
| | **Baza modulları üzrə cəmi** | **155** | **0** | **2** | **0** | **2** | **3** | **3** | **0** | |
| | | | | | | | | | | |
| | **İxtisas modulları** | **767** | **7** | **5** | **7** | **5** | **11** | **15** | 0 | |
| **16** | İş şəraitində əmək, təhlükəsizlik və sağlamlıq qaydaları | 54 | 3 | | | | | | | |
| **17** | Tikiş məmulatlarının materialşünaslığı | 114 | 1 | 1 | 2 | 2 | | | | |
| **18** | Tikiş istehsalının avadanlığı | 96 | 2 | 3 | | | | | | |
| **19** | Geyimin bədii layihələndirilməsi | 75 | | | | | 3 | 3 | | |
| **20** | Tikiş məmulatlarının hazırlanma texnologiyası | 116 | 1 | 1 | 1 | 1 | 2 | 1 | | |
| **21** | Tikiş məmulatlarının konstruksiyası | 112 | | | 4 | 2 | | | | |
| **22** | Dərzi işinin planlaşdırılması | 70 | | | | | 2 | 4 | | |
| **23** | Biçmə və geyimin hazırlanma qaydaları | 70 | | | | | 2 | 4 | | |
| **24** | Tamamlama və təqdimat işləri | 60 | | | | | 2 | 3 | | |
| | **İxtisas modulları üzrə cəmi** | **767** | **7** | **5** | **7** | **5** | **11** | **15** | | |
| | **İstehsalat təlimi** | **882** | **7** | **7** | **7** | **7** | **14** | **14** | | |
| | **İstehsalat təcrübəsi** | **480** | | | | | | | **40** | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **Tələbələrin məcburi maksimum dərs yükü** | **4015** | **35** | **35** | **35** | **35** | **35** | **35** | **40** | |
| | **Məsləhət saatları** | **20** | | | | | | | | |
| | **Yekun:** | **4035** | **35** | **35** | **35** | **35** | **35** | **35** | **40** | |

## Modulların spesifikasiyası

| |
|---|
| **Modulun adı: Ana dilində ünsiyyət** |
| **Modulun kodu: 1** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə peşəkar ünsiyyəti təhlil etməyi, peşəkarlıq məsələləri ilə bağlı şifahi və yazılı şəkildə ünsiyyət qurmağı və peşəyə dair yazılı materiallardan istifadə etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Peşəkar ünsiyyəti təhlil edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Gələcək iş yerində kimlərlə ünsiyyət quracağını araşdırır. |
| 2. Gələcək iş yerindən kənarda kimlərlə ünsiyyət quracağını araşdırır. |
| 3. Gələcək iş yerində istifadə edilən səciyyəvi ünsiyyət üsullarını təsvir edir. |
| 4. Gələcək iş yerində səciyyəvi ünsiyyət problemlərini qiymətləndirir. |
| **Təlim nəticəsi 2: Peşə məsələləri ilə bağlı şifahi ünsiyyət qurur.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Peşəsindəki səciyyəvi ünsiyyəti təhlil edir. |
| 2. Peşə məsələləri ilə bağlı şifahi təqdimat verir. |
| 3. Səmərəli şifahi ünsiyyəti təsvir edir. |
| **Təlim nəticəsi 3: Peşə məsələləri ilə bağlı yazılı ünsiyyət qurur.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Peşəsindəki səciyyəvi yazılı ünsiyyəti təhlil edir. |
| 2. Daxili ünsiyyətin yazılı nümunələrini təqdim edir. |
| 3. Səciyyəvi yazılı xarici ünsiyyətin nümunələrini təqdim edir. |
| **Təlim nəticəsi 4: Peşə məsələləri ilə bağlı yazılı materiallardan istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Peşəkar istifadə üçün müvafiq Azərbaycan mediasını müəyyən edir. |
| 2. Müvafiq peşə məsələləri ilə bağlı yazılı materialları təhlil edir. |
| 3. Müvafiq peşə ilə bağlı materialı şifahi olaraq təqdim edir. |
| 4. Peşə ilə bağlı yazılı materialın təqdimatını qiymətləndirir. |

| **Modulun adı: Xarici dildə ünsiyyət** |
|---|
| **Modulun kodu: 2** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə gündəlik ünsiyyət zamanı lazım olan sözlərdən sərbəst şəkildə istifadə etməyi biləcək, özünü aydın ifadə etməyi, və eləcə də müxtəlif sahələrə uyğun terminologiyalar tətbiq etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Gündəlik məsələlər, təhsil, iş, iş yerində sağlamlıq və təhlükəsizlik mövzularında ünsiyyət qurmağı və özünü ifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Gündəlik həyatda sadə cümlələr ilə özünü ifadə edir; |
| 2. Təhsil mövzusu ətrafında olan mətnləri təhlil edir; |
| 3. İş həyatında istifadə olunan əsas anlayışlardan istifadə edərək öz sahəsini təsvir edir; |
| 4. İş yerində sağlamlıq və təhlükəsizlik qaydalarını xarici dildə sadalayır. |
| **Təlim nəticəsi 2: Gündəlik məsələlər üzrə baza səviyyəsində ünsiyyət qurmağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müxtəlif ölkələrə səyahətlə bağlı müzakirələrdə iştirak edir; |
| 2. Ətraf mühitlə bağlı ilkin anlayışları təsvir edir; |
| 3. Maliyyə ilə bağlı məsələlərdə ünsiyyət qurur; |
| 4. Gündəlik xəbərlərlə bağlı fikir mübadiləsi aparır. |
| **Təlim nəticəsi 3: Müasir texnologiya ilə bağlı terminləri bilir və diskusiyyalar aparmağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Ünsiyyətin müxtəlif növlərini tətbiq edir; |
| 2. Müxtəlif rəqəmsal texnologiyalardan məlumat almaq üçün istifadə edir; |
| 3. Texnologiyanın əhəmiyyətini şərh edir. |

| **Modulun adı: Hesablama əməliyyatları** |
|---|
| **Modulun kodu: 3** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə məsələlərin həllində riyazi düşüncə nümayiş etdirməyi, hesablamalar aparmağı, cədvəl və qrafiklər hazırlamağı, onlardan istifadə etməyi, cəbri qanunları tətbiq etməyi və təsviri statistikadan istifadə etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Məsələlərin həllində riyazi düşüncə nümayiş etdirir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Riyazi məsələlərin həllini necə qavradığını izah edir. |
| 2. Məsələlərin həllində nə zaman riyazi üsullardan istifadə edəcəyini müəyyən edir. |
| 3. Riyazi qanunlardan istifadə edərək məsələlərin həlli zamanı hansı texniki vəsaitlərdən istifadə olunacağını tədqiq edir. |

| |
|---|
| 4. Praktiki məsələlərdə riyazi termin və modellərdən istifadə etmək üçün nümunələr verir. |
| **Təlim nəticəsi 2: Sadə hesablamalar aparır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. İşdən əlavə vaxt üçün hesablanan bonusları və çıxılmaları nəzərə almaqla əmək haqqından xalis gəliri hesablayır. |
| 2. Faizləri və yenidən ödənişləri (qaytarılmaları) bank krediti üzrə hesablayır. |
| 3. Formul və reseptlər əsasında xammalın müxtəlif qarışıqlarını hesablayır. |
| 4. Sifarişlərlə əlaqəli tipik hesabatlar aparır. |
| 5. Digər tipik işlərlə bağlı hesablamaları yerinə yetirir. |
| **Təlim nəticəsi 3: Sadə qrafik və cədvəllər hazırlayır və məsələlərin həllində onlardan istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Histoqramdan, nöqtəli diaqramdan, xətli qrafik və piktoqramdan alınan məlumatlardan istifadə edir. |
| 2. Nəzərdən keçirilən işdən alınan informasiyalara əsasən, histoqramlar, nöqtəli diaqramlar, xətti qrafik və ya piktoqramlar qurur. |
| 3. Exceldən istifadə etməklə 2-ci qiymətləndirmə meyarındakı diaqramları qurur. |
| **Təlim nəticəsi 4: Məsələlərin həllində sadə cəbri qaydaları tətbiq edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Mötərizələrdən istifadə etməklə ifadələri aydınlaşdırır və sadələşdirir. |
| 2. Tənliklər və riyazi ifadələrlə düzgün manipulyasiya edir və onları sadələşdirir. |
| 3. Müvafiq dəyişənlərdən istifadə edərək riyazi funksiyalar qurur. |
| 4. İndexslər qanunu tətbiq edir. |
| 5. Sadə xətti funksiyaları praktiki misallarla izah edir. |
| **Təlim nəticəsi 5: Sadə təsviri statistikadan istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Çoxluğa qarşı seçim konsepsiyanı izah edir. |
| 2. Mərkəzin tendensiya üzrə məlumatlarını təsvir edir (moda, median, ədədi orta). |
| 3. Dispersiya ölçüləri olan məlumatları təsvir edir. |
| 4. Histoqram və diaqramları təsvir edir. |

| |
|---|
| **Modulun adı: İKT-dən istifadə** |
| **Modulun kodu: 4** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə işlə əlaqəli məlumatları tapmağı, qiymətləndirməyi və idarə etməyi, müxtəlif müvafiq mediadan istifadə etməklə peşəkarcasına əlaqə qurmağı və əməkdaşlıq etməyi, peşəkar rəqəmsal məzmun hazırlamağı, İT-dən təhlükəsiz şəkildə istifadə etməyi və texnologiyadan istifadə etməklə problemləri həll etməyi bacaracaqdır. |

| |
|---|
| **Təlim nəticəsi 1: İnternetdə məlumatları tapmağı, qiymətləndirməyi və idarə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq məlumat göstəricilərini (verilənlər), məlumat və rəqəmsal məzmunu müəyyən edir. |
| 2. Müvafiq məlumat göstəricilərinin, məlumat və rəqəmsal məzmunun keyfiyyətini dəyərləndirir. |
| 3. Rəqəmsal mühitlərdə məlumat göstəricilərini, məlumatları və rəqəmsal məzmunu idarə edir. |
| **Təlim nəticəsi 2: Sosial media vasitələrindən istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq rəqəmsal texnologiyalar vasitəsilə peşəkarcasına işləyir. |
| 2. Müvafiq rəqəmsal texnologiyalardan istifadə etməklə məlumat göstəricilərini, məlumat və rəqəmsal məzmunu paylaşır. |
| 3. Rəqəmsal texnologiyalar vasitəsilə öz işlərini yerinə yetirir. |
| 4. Müvafiq rəqəmsal texnologiyalar vasitəsilə peşəkarcasına davranır. |
| 5. Peşəkar şəbəkə vasitəsilə ünsiyyət qurur. |
| 6. Rəqəmsal kimliyi idarə edir. |
| **Təlim nəticəsi 3: Rəqəmsal məzmun hazırlayır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq formatlarda peşəkar rəqəmsal məzmunu hazırlayır. |
| 2. Yeni müvafiq məzmun hazırlanması üçün mövcud rəqəmsal məzmunu inteqrasiya edərək uyğunlaşdırır. |
| 3. Müəlliflik hüququ və lisenziyaların məlumat göstəricilərinə, məlumat və rəqəmsal məzmuna necə tətbiq edilməsini təsvir edir. |
| **Təlim nəticəsi 4: İnformasiya texnologiyalarından təhlükəsiz şəkildə istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq cihazları qoruyur. |
| 2. Şəxsi məlumat və məxfiliyi qoruyur. |
| 3. Cihazlardan istifadə edərkən sağlamlığını qoruyur. |

| |
|---|
| 4. Cihazlardan istifadə edərkən ətraf mühiti qoruyur. |
| **Təlim nəticəsi 5: Sadə texniki problemləri həll edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müvafiq cihazları işlədərkən yaranmış texniki problemləri həll edir. |
| 2. Texnologiyalardan istifadə etməklə işlə əlaqəli müvafiq ehtiyacları müəyyən edərək, bunların texnoloji həlli yollarını seçir. |
| 3. Öz rəqəmsal bacarılarındakı çatışmazlıqları müəyyən edir. |
| 4. Öz rəqəmsal bacarıqlarındakı çatışmazlıqları aradan qaldırmaq üçün inkişaf planını təqdim edir. |

| |
|---|
| **Modulun adı: Şəxsi inkişaf və karyera planlaşdırması** |
| **Modulun kodu: 5** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə özünü tanımağı və şəxslərarası münasibətləri tənzimləməyi, düşünməyi, problemləri həll edərək qərarları qəbul etməyi, karyera məqsədlərini müəyyən etməyi və müasir iş axtarma və müraciət üsullarınıdan istifadə etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Özünü tanımağı və şəxslərarası münasibətləri tənzimləməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Stresi idarə edir və emosiyaları tənzimləyir. |
| 2. Pozitiv düşünür və özünü qiymətləndirir. |
| 3. Empatiya qurur və dinləyir. |
| 4. Şəxslərarası münasibətləri effektiv idarə edir və mübahisələri həll edir. |
| 5. İnamlı ünsiyyət qurur. |
| **Təlim nəticəsi 2: Düşünməyi və problemləri həll edərək qərarları qəbul etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Məqsədlərini müəyyənləşdirir və qərarları qəbul edir. |
| 2. Problemləri həll edir. |
| 3. Tənqidi və yaradıcı düşünür. |
| 4. İcra edir və davamlılığı təmin edir. |
| **Təlim nəticəsi 3: Karyera məqsədlərini müəyyən edir və müasir iş axtarma və müraciət üsullarından istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Karyera anlayışının mənasını izah edir. |
| 2. Karyera məqsədlərinin müəyyən edilməsi yollarını araşdırır. |
| 3. Müasir iş axtarma və müraciət üsullarından istifadə edir. |
| 4. Peşəkar inkişafın üsul və mərhələlərinə tətbiq edir. |

| Modulun adı: Peşə etikası |
|---|
| **Modulun kodu: 6** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə peşəkarlığın əsas prinsiplərini biləcək və vaxtdan səmərəli istifadə etməyi, qrup şəklində işləməyi və iş yerində mövcud davranış qaydalarını təhlil etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Peşəkarlıq prinsiplərini bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Peşəkarlıq anlayışının nə olduğunu müəyyən edir. |
| 2. Peşəkarlığın əsas kriteriyaları izah edir. |
| 3. Peşəkar davranışın əsas meyarlarını izah edir. |
| 4. Peşəkarlığın karyera inkişafındakı rolunu dərk edir. |
| **Təlim nəticəsi 2: Vaxtdan səmərəli istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Vaxt anlayışını və onun əhəmiyyətinin nədən ibarət olduğunu sadalayır. |
| 2. Vaxtın idarə olunmasındakı əsas yanaşmaları təhlil edir. |
| 3. İdarəetmə funksiyaları və vaxtın idarə olunması arasında əlaqəni izah edir. |
| 4. Vaxtdan səmərəli istifadəyə mane olan əsas əngəlləri aradan qaldırma üsullarını sadalayır. |
| 5. Fərdi vaxt planlaşdırma üsullarını nümayiş etdirir. |
| **Təlim nəticəsi 3: Qrup daxilində səmərəli işləməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Öz peşəsi ilə bağlı qruplarda necə işlədiyini izah edir. |
| 2. Səciyyəvi qrup işlərində qrupdakıların rollarını təsvir edir. |
| 3. Qrup işində öz şəxsi rolunu təhlil edir. |
| 4. Öz peşəsi ilə bağlı qrup işində problemlərin nümunələrini nəzərdən keçirir. |
| 5. 4-cü qiymətləndirmə meyarında müəyyən edilən problemlərin həllinə necə kömək edə biləcəyini təsvir edir. |
| **Təlim nəticəsi 4: İş yerində davranış qaydalarını təhlil etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |

| |
|---|
| 1. Etik davranışın hansı mənanı ifadə etdiyini nümayiş etdirir. |
| 2. İş etikası anlayışını və fərdi etik davranışların nə olduğunu izah edir. |
| 3. Müəssisə və təşkilatlarda gündəlik etik davranış qaydalarını sadalayır. |
| 4. Ətraf mühiti bir işçi kimi necə qoruya biləcəyini təsvir edir. |
| 5. Müəssisə və təşkilatlarda davranış qaydalarının idarə olunması prinsiplərini müəyyənləşdirir. |

| |
|---|
| **Modulun adı: Sahibkarlıq** |
| **Modulun kodu: 7** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə sahibkarlıq ideyalarını müəyyənləşdirib qiymətləndirməyi, ideyaların həyata keçirilməsi üçün lazımi resursları müəyyənləşdirib toplamağı və ideyaları həyata keçirilməsi yollarını göstərməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Sahibkarlıq ideyalarını, imkanlarını müəyyən etməyi və qiymətləndirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Sahibkarlığın mahiyyətini izah edir. |
| 2. Sahibkarlıq fəaliyyəti üçün əlində olan imkanları müəyyən edir. |
| 3. Sahibkarlıq ideyalarını müəyyənləşdirir. |
| 4. Sahibkarlıq ideyasını qiymətləndirir. |
| **Təlim nəticəsi 2: Sadə biznes layihəsini hazırlayır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Biznes planın məqsəd və strukturunu izah edir. |
| 2. Marketinq planını hazırlayır. |
| 3. Satış və insan resurslarını planlaşdırır. |
| 4. İnvestisiya və maliyyə planını hazırlayır. |
| 5. Büdcəni planlaşdırır. |
| 6. Qeyri-müəyyənlik və risk hallarında necə qərar qəbul edəcəyini təsvir edir. |
| **Təlim nəticəsi 3: Sahibkarlıq ideyalarını necə həyata keçirməli olduğunu göstərir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Yaradılan müəssisənin hüquqi məsələlərini təsvir edir. |

| |
|---|
| 2. Sahibkarlıq prosesində başqaları ilə səmərəli əməkdaşlıq üçün nə edəcəyini təsvir edir. |
| 3. Biznes plan hazırlanmasından sonrakı addımlarını müəyyən edir. |

| |
|---|
| **Modulun adı: Estetika və mədəni özünüifadə** |
| **Modulun kodu: 8** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə Azərbaycan müəlliflərini və rəssamlarını təhlil etməyi, Azərbaycan mədəniyyətini təqdim etməyi, kreativlik və estetika anlayışlarını təhlil etməyi və onlardan düzgün şəkildə istifadə etməyi, etiket və nəzakət qaydalarını təhlil edib onlardan istifadə etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinin əsas əsərlərini şərh edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Azərbaycanın 3 görkəmli yazıçısının əsərlərini təhlil edir. |
| 2. Azərbaycan musiqi sənətinin 3 görkəmli nümayəndəsinin yaradıcılığını təhlil edir. |
| 3. Azərbaycanın 3 görkəmli vizual rəssamının əsərlərini təhlil edir. |
| **Təlim nəticəsi 2: Dünya incəsənət nümunələrini və məşhur mədəniyyət və incəsənət xadimlərinin əsərlərini şərh edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Dünyaca məşhur 3 mədəniyyət sahəsini müəyyən edir. |
| 2. Mədəniyyət sahələri haqqında məlumatları təhlil edir. |
| 3. Seçilmiş mədəniyyət sahələrinin şifahi təqdimatını verir. |
| 4. Başqalarına mədəniyyət sahələrinin təqdim edilməsinə dair konstruktiv rəy verir . |
| 5. 3 mədəni sahənin yazılı təqdimatını hazırlayır. |
| **Təlim nəticəsi 3: Kreativlik və estetika anlayışlarını təhlil edərək onlardan istifadə edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Estetika anlayışını təhlil edir. |
| 2. Kreativlik anlayışını təhlil edir. |
| 3. Estetika anlayışından istifadə edərək kretiv ideyalar təqdim edir. |
| **Təlim nəticəsi 4: Etiket və nəzakət qaydalarını təhlil edərək onlardan istifadə edir.** |

| Qiymətləndirmə meyarları |
|---|
| 1. Ölkəmizə xas nəzakət qaydalarını şərh edir. |
| 2. İş yerində etiket qaydalarını tətbiq edir. |
| 3. Ayrı-ayrı ölkələrdə istifadə edilən etiket və nəzakət qaydalarını təhlil edir. |

| |
|---|
| **Modulun adı: Fiziki tərbiyə** |
| **Modulun kodu: 9** |
| **Modulun ümumi məqsədi:** Bu modul tamamlandıqdan sonra tələbə tərbiyəvi prosesdə sağlamlığın yüksəldilməsi, peşə xəstəliklərinin qarşısının alınması, pis vərdişlər, fərdi fiziki inkişaf və sağlam fiziki həyat haqqında zəruri məlumatı biləcək və dövlət standartında müvafiq təlimlərlə nəzərdə tutulan fiziki standartları yerinə yetirmək üçün fərdi olaraq seçilmiş kompleks sağlamlıq və gimnastika məşğələlərini həyata keçirməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1**: **Hərəki vərdiş və bacarıqları formalaşdıran müxtəlif statik və dinamik hərəkətləri sadə üsullarla icra edir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Hərəkətlərin sağlamlaşdırıcı və inkişafetdirici təsirini izah edir. |
| 2. Hərəkətlərin icra şəraiti və icra üsulunun təkmilləşdirilməsi barədə müzakirə aparır. |
| 3. Şəxsiyyətin hormonik inkişafını təsvir edir. |
| 4. Fiziki tərbiyə üzrə nəzəri bilikləri izah edir. |
| **Təlim nəticəsi 2: Fiziki tərbiyə prosesində intizam və rejim qaydalarına əməl edir, birgə fəaliyyət bacarıqları nümayiş etdirir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Aktiv hərəkətlərlə bağlı bacarıq və vərdişlərini nümayiş etdirir. |
| 2. Aktiv hərəkətlərin icrasında əlverişli üsullarından istifadə edir. |
| 3. Aktiv hərəkətlərinə nəzarət edir. |
| 4. Şəraitə uyğun ilkin tibbi yardım göstərir. |
| 5. Bərpaedici vasitələrdən səmərəli istifadə edir. |
| **Təlim nəticəsi 3**: **İdman oyunlarını, o cümlədən milli idman oyunlarını və onların növlərini təqdim edir.** |
| **Qiymətləndirmə meyarları** |

| |
|---|
| 1. Fiziki hazırlığını artırmaq üçün aktiv hərəkətlərdən və xüsusi vasitələrdən müntəzəm istifadə edir. |
| 2. Yaş qrupuna müvafiq hərəkətlərə qadir olduğunu nümayiş etdirir. |
| 3. Hərəkətlərin icrası zamanı əlverişli metodlar tətbiq edir. |
| 4. Aktiv hərəkətlərə qadir olduğunu nümayiş etdirir. |

| |
|---|
| **Modulun adı: Çağırışaqədərki hazırlıq** |
| **Modulun kodu: 10** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə dövlət təhlükəsizliyinin tarixi və hüquqi əsasları, sıra və intizam nizamnamələrinin ümumi müddəalarını biləcəkdir. |
| **Təlim nəticəsi 1: Azərbaycan Respublikasının Silahlı Qüvvələrində istifadə olunan hərbi texnika və sursatlar haqqında zəruri məlumatlara malik olduğunu nümayiş etdirir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Azərbaycan Silahlı Qüvvələrinin yaradılması və inkişafı barədə məlumatları şərh edir. |
| 2. Vətənin müdafiəsində vətəndaş vəzifələrini sadalayır. |
| 3. Hərbi nizamnamələrin yerinə yetirilmə məsuliyyətini dərk edir. |
| 4. Sıra və intizam nizamnamələrinin ümumi müddəalarını şərh edir. |
| **Təlim nəticəsi 2: Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin nizamnamələrində təsbit olunmuş əsas müddəaları mənimsədiyini, tibbi yardım və mülki müdafiə bacarıqlarına, topoqrafik vərdişlərə yiyələndiyini nümayiş etdirir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Müasir ümumqoşun döyüşü haqqında məlumatları şərh edir. |
| 2. Müasir döyüş vasitələrini təsvir edir. |
| 3. Topoqrafiya üzrə bacarıqlarını nümayiş etdirir. |
| 4. Fövqəladə hadisələr zamanı əhalinin mühafizəsi haqqında biliklərini təsnif edir. |
| 5. Mühafizə vasitələrindən düzgün istifadə edir. |
| 6. Radiasiyaya nəzarət və kimyəvi kəşfiyyat cihazlarından istifadə edir. |
| **Təlim nəticəsi 3: Mülki müdafiə, sıra təlimi və fiziki hazırlığa aid normativləri yerinə yetirir, onların icrası zamanı qrup və komanda tərkibində əlaqəli fəaliyyət göstərir.** |

| Qiymətləndirmə meyarları |
|---|
| 1. Sağlam həyat tərzi üzrə bilikləri əlaqələndirir. |
| 2. Sağlamlığın mühafizəsi haqqında ümumi müddəaları şərh edir. |
| 3. Yaralanma və bədbəxt hadisə zamanı zərərçəkənlərə ilkin tibbi yardım göstərir. |
| 4. Fövqəladə hadisələrdə zədələnmələrin profilaktikasını və ilkin tibbi yardım qaydalarını tətbiq edir. |
| 5. Radiasiya şüalanmaları və kimyəvi zədələnmələr zamanı ilkin tibbi yardımı yerinə yetirir. |

| **Modulun adı: İş şəraitində əmək, təhlükəsizlik və sağlamlıq qaydaları** |
|---|
| **Modulun kodu: 11** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə əməyin, ətraf mühitin mühafizə olunma qaydalarını, istehsalat sanitariyası, əmək gigiyenasıqaydalarını biləcək və mümkün təhlükələrin qarşısını almağı bacaracaqdır. |
| **Təlim nəticəsi 1: İş yerində əməl ediləcək təhlükəsizlik tədbirlərini bilir və qaydaları tətbiq etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Əməyin təhlükəsizliyi və əmək fəaliyyəti ilə bağlı ümumi faktorları və təlimatları şərh edir. |
| 2. Əməyin mühafizəsi ilə bağlı məqsəd, norma və standartları yerinə yetirir. |
| 3. İş yerlərində əməyin mühafizəsi və texniki təhlükəsiz iş üsullarına riayət edir. |
| 4. İstehsal sahələri və istehsal meydançaları ilə bağlı təhlükəsizlik tələblərini sadalayır. |
| **Təlim nəticəsi 2: Alətlərlə işləyərkən, aqreqatları sınaq edərkən əmək təhlükəsizliyi və iş zamanı yarana biləcək yanğın təhlükəsizliyi tədbirlərini bilir və tətbiq etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Elektriklə işləyən alətlərdən istifadə zamanı əməl ediləcək təhlükəsizlik tədbirlərini sadalayır. |
| 2. Elektrik maşınları quraşdırılmış otaqlarda ilkin mühafizə vasitələri – yanğın söndürən və quru qum olan yeşikdən istifadə qaydalarını təsvir edir. |
| 3. Baş verə biləcək yanğın təhlükəsinin qarşını ala biləcək tədbirləri və yanğının yayılmasına qarşı mübarizədə yanğın söndürmə vasitələrini seçir. |
| 4. Nərdivanların, meydançaların və pilləkənlərin tətbiqi zamanı təhlükəsizlik tələblərini əlaqələndirir. |
| **Təlim nəticəsi 3: İstehsalat zədələnmələrinin növlərini, yaranma səbəblərini bilir və müvafiq tədbirlər görməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. İstehsalat zədələnmələrinin növlərini və səbəblərini izah edir. |
| 2. Zədələnmə və peşə xəstəliklərinin əsas səbəblərini təsvir edir. |

| |
|---|
| 3. İstehsalatda zədələnmə səbəblərinin qarşısını almaq üçün müəyyən tədbirlər görür. |
| 4. İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta olunanlar və onların iqtisadi fəaliyyət növləri üzrə kateqoriya və risk qruplarını seçir. |
| **Təlim nəticəsi 4: Əmək gigiyenası haqqında bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Əmək gigiyenası haqqında ümumi bilgiləri və inkişafının əsas mərhələlərini izah edir. |
| 2. Zərərli və təhlükəli faktorların təsnifatını təsvir edir. |
| 3. Əməyin gigiyenası, əmək prosesini və istehsalat şəraitini, onların orqanizmlə qarşılıqlı təsirini müəyyən edir. |
| 4. Əmək prosesinin xüsusiyyətlərindən və rejimindən asılı olan zərərləri kateqoriyalara (qruplara) bölür. |
| **Təlim nəticəsi 5: İstehsalat səs-küylərinin və titrəyişlərin insan orqanizminə təsirini bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. İstehsalat səs-küylərinin təsnifatını şərh edir. |
| 2. İşçilərin orqanizminə səs-küylərin təsirini izah edir. |
| 3. Səs-küylərin insan orqanizminə xoşagəlməz təsirinin profilaktikasını təsvir edir. |
| 4. Müxtəlif güclü və tezlikli səslərin nizamsız (xaotik) birləşməsindən səs-küy (gurultu) yaranmasını müəyyən edir. |
| **Təlim nəticəsi 6: Ətraf mühitin mühafizəsi və yanğınsöndürmə vasitələrinə dair ilkin tədbirləri bilir və həyata keçirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Ekoloji qanunları təsvir edir. |
| 2. Ekoloji şəraitin yaxşılaşdırılmasına yardımçı olan üsulları sadalayır. |
| 3. Müəssisədə olan yanğınsöndürmə vasitələrindən düzgün istifadə edir. |
| 4. Yanğın baş verərkən yanğın təhlükəsizliyinin əsas və fərdi ehtiyat tədbirləri ilə otaqlardan çıxma qaydalarını uyğunlaşdırır. |
| 5. İşləri başa çatdırdıqdan sonra ətraf mühitin qorunması naminə ərazini təmizləyir. |

| |
|---|
| **Modulun adı: Tikiş məmulatlarının materialşünaslığı** |
| **Modulun kodu: 12** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə toxuculuq lifləri, parça növlərinin toxunması və keyfiyyətinin qiymətləndirilməsi, tərkibinin müəyyən edilməsi, bərkidici astar haqqında bilir və bəzək materiallarını seçməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Liflərin xassələrini bilir və növlərə ayırmağı bacarır.** |

| Qiymətləndirmə meyarları |
|---|
| 1. Toxuculuq liflərinin saplarını və quruluşun xassələrini təsnif edir. |
| 2. Təbii lifləri təsnifata əsasən sadalayır. |
| 3. Təbii liflərin xassələrini və emalını şərh edir. |
| 4. Heyvan mənşəli liflərin xassələrini təsnif edir. |
| 5. Kimyəvi lifləri və növlərini izah edir. |
| 6. Sapın nömrəsini və tekstini təyin edir. |
| **Təlim nəticəsi 2: Parçanın toxunması haqqında bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Toxuculuq dəzgahı haqqında ümumi məlumat verir. |
| 2. Parçanın əriş və arğac saplarının qarşılıqlı hörülməsini izah edir. |
| 3. Hörmə parçanın xassələrini sadalayır. |
| 4. Parçanın toxunma üsullarını müəyyən edir. |
| 5. Parçanın boyaq bəzək texnologiyasını izah edir. |
| 6. Parçanın merselizə prosesini təşkil edir. |
| **Təlim nəticəsi 3: Parçaları növlərinə, xassələrinə görə seçə bilir və tikiş prosesində tətbiq etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Parça çeşidlərini nümayiş etdirir. |
| 2. Parçaların növləri haqqında məlumat verir. |
| 3. Hörmə parçalarını növlərə ayırır. |
| 4. Toxunmayan parçaları növlərinə görə fərqləndirir. |
| 5. Müxtəlif növ parçalardan istifadə edir. |
| **Təlim nəticəsi 4: Parçanı keyfiyyətinə görə qiymətləndirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Parçanın fiziki-mexaniki xassələrini izah edir. |
| 2. Parçanın xarici görünüşündəki qüsurları müəyyən edir. |
| 3. Boyağın möhkəmliyi üzrə parçaların qiymətləndirmə meyarlarını sadalayır. |
| 4. Parçanı növlərə ayırmaq üçün üsulları seçir. |
| 5. Parçanın tərkibini təyin edir. |

| Təlim nəticəsi 5: Bərkidici, astarlıq və bəzək materiallarını seçə bilir və onlardan istifadə etməyi bacarır. |
|---|
| **Qiymətləndirmə meyarları** |
| 1. Tikiş istehsalında tətbiq olunan yapışqan və yapışqanlı araqatı materiallarını müəyyən edir. |
| 2. İsti araqatı materiallarının xüsusiyyətini izah edir. |
| 3. Təbii dərinin işlənmə texnologiyası haqqında məlumat verir. |
| 4. Süni dərinin işlənmə üsullarını izah edir. |
| 5. Geyimlər üçün furniturların çeşidlərini təsvir edir. |
| 6. Geyimlərdə dəbə uyğun bəzək materiallarını seçir. |

| |
|---|
| **Modulun adı: Tikiş istehsalının avadanlığı** |
| **Modulun kodu: 13** |
| **Modulun ümumi məqsədi:** Bu modulu bitirdikdən sonra tələbə tikiş istehsalında istifadə edilən alət, tərtibat və avadanlıqların texnoloji xarakteristikasını bilir və qaydalara əsasən idarə etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Tikiş istehsalında tətbiq edilən tikiş maşınları, İsti – nəmləşdirmə əməliyyatlarının (İNƏ) avadanlıqları haqqında ümumi məlumatı bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tikiş maşınlarının təsnifatını təsvir edir. |
| 2. Tikiş maşınlarının əsas işçi orqanlarını sadalayır. |
| 3. Tikiş maşınlarının hissələrinin strukturunun təsvirini nümayiş edir. |
| 4. Maşın iynələrinin təsnifatını müəyyən edir. |
| 5. İsitmə nəmləndirmə əməliyyatı avadanlıqlarının təyinatını izah edir. |
| **Təlim nəticəsi 2: Düz tikişli məkikli toxunmalı bərkidici tikiş maşınlarının texnoloji xarakteristikasını bilir və idarə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Məkikli tikiş sırasının xüsusiyyətlərini sadalayır. |
| 2. Məkikli tikiş sırasının alınma prinsipini izah edir. |
| 3. Düz tikişli birxətli iki saplı məkik toxumalı maşının texniki xarakteristikasını təsvir edir. |

| |
|---|
| 4. İki saplı məkik toxumalı tikiş maşınını idarə edir. |
| **Təlim nəticəsi 3: Sapdırıcı iynəli tikiş maşınlarının texnoloji xarakteristikasını bilir və idarə edən zaman tikişdə yaranan nöqsanları aradan qaldırmağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. İki paralel tikiş arasında məsafəsi tənzimlənən maşının texnoloji xarakteristikasını müəyyən edir. |
| 2. Dar ixtisaslaşmış tikiş maşınlarının tiplərini izah edir. |
| 3. İki iynəli (iş prosesində lazım gələrsə iynənin birini dayandırmaqla) işləyən maşının iş prinsipini izah edir. |
| 4. Tikişdən əmələ gələn nöqsanları aradan qaldırır. |
| **Təlim nəticəsi 4: Zəncirvarı toxumalı tikiş maşınlarının texnoloji xüsusiyyətlərini bilir və idarə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Bir saplı zəncirvari toxumalı tikiş maşınlarının texnoloji xüsusiyyətlərini təsvir edir. |
| 2. İki saplı zəncirvari toxumalı tikiş maşınlarının iş prinsipini izah edir. |
| 3. Üç saplı zəncirvari toxumalı tikiş maşınlarını idarə edir. |
| 4. Zəncirvari toxumalı tikiş maşınlarının xüsusiyyətlərini izah edir. |
| 5. Fərdi elektrik ötürücüsü, avtomatlaşdırılmış elektrik ötürücüsü haqqında biliklərini nümayiş etdirir. |

| |
|---|
| **Modulun adı: Geyimin bədii layihələndirilməsi** |
| **Modulun kodu: 14** |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə istənilən modeldə geyimin eskizini çəkməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Rəngləri xüsusiyyətlərinə görə seçməyi bilir və drapirovkanı təsvir etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Əsas rənglər haqqında ümumi məlumatları sadalayır. |
| 2. İsti və soyuq rəngləri seçir. |
| 3. Rənglərin qarışığından alınan rəngləri ayırd edir. |

| |
|---|
| 4. Sadə drapirovkanı çəkir. |
| 5. Mürəkkəb drapirovkanı çəkir. |
| **Təlim nəticəsi 2: İnsan fiqurunun mütənasibliyə görə sxemini qurub çəkməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. İnsan fiqurunun mütənasibliyini təsvir edir. |
| 2. Müxtəlif növ geyimlərin eskizini çəkir. |
| 3. İnsan bədəninin cizgisini çəkir. |
| 4. İnsan bədənini müxtəlif formalarda çəkir. |
| **Təlim nəticəsi 3: Qadın geyimlərinin təsvirini bilir və eskizini çəkməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Qadın fiqurunun rəsmini çəkir. |
| 2. Qadın geyiminin eskizini çəkir. |
| 3. Modeldəki bütün konstruktiv dekorativ xətləri təsvir edir. |
| 4. Modeldə rəng və tonları uyğunlaşdırır. |
| 5. Milli geyimi təsvir edir. |
| **Təlim nəticəsi 4: Kişi və uşaq geyimlərinin eskizini çəkməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Kişi fiqurunun rəsmini çəkir. |
| 2. Uşaq fiqurunun rəsmini çəkir. |
| 3. Kişi geyimlərinin eskizini çəkir. |
| 4. Uşaq geyimlərinin eskizini çəkir. |
| 5. Uşaq geyimlərini rəngarəng təsvir edir. |
| 6. Kişi milli geyimini təsvir edir. |

| |
|---|
| **Modulun adı: Tikiş məmulatlarının hazırlanma texnologiyası** |
| **Modulun kodu: 15** |
| **Modulun ümumi məqsədi:** Bu modulu bitirdikdən sonra tələbə sifarişə uyğun tələb olunan forma və ölçülərdə müxtəlif növ tikiş məmulatlarını tikməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Əl və maşın işlərini yerinə yetirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Texniki təhlükəsizlik qaydalarına əməl etməklə işçi yerini düzgün təşkil edir. |
| 2. Alət və avadanlıqları iş prosesində tətbiq edir. |
| 3. Əl və maşın tikişlərinin növ və təyinatını müəyyənləşdirir. |
| 4. Əl və maşın tikişlərini yerinə yetirərkən texniki şərtlərə əməl edir. |
| **Təlim nəticəsi 2: Muncuqlarla, bədii tikmələrlə bəzək elementləri hazırlamağı bacarır** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Bədii tikmələr üçün materialları seçir |
| 2. Naxışları parcaya köçürür və bəzək elementləri hazırlayır |
| 3. Muncuqları növlərə ayırır və onlarla işləyir |
| 4. Aplikasiyalar hazırlamağı bilir |
| **Təlim nəticəsi 3: İsti – nəmləşdirmə əməliyyatları (İNƏ) haqqında bilir və onlardan iş prosesində istifadə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Texniki təhlükəsizlik qaydalarına uyğun iş yerini düzgün təşkil edir. |
| 2. Alət və avadanlıqlar haqqında məlumat verir. |
| 3. İNƏ növlərini və təyinatını müəyyən edir. |
| 4. İNƏ-nı yerinə yetirən zaman texniki şərtlərə əməl edir. |
| **Təlim nəticəsi 4: Məmulatın ayrı-ayrı hissələrini hazırlamağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Məmulatın kiçik hissələrini hazırlayır. |
| 2. Ciblərin hazırlanma qaydalarını tətbiq edir. |
| 3. Müxtəlif növ yaxalıqları tikir. |
| 4. Bağlamaların növlərini sadalamaqla tikilmə üsulunu müəyyən edir. |
| 5. Tələbə axınında müxtəlif əməliyyatları yerinə yetirir. |

| |
|---|
| **Təlim nəticəsi 5: Müxtəlif növ tikiş məmulatlarını hazırlamağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Bel məmulatlarını tikir. |
| 2. Qadın paltarlarını texnoloji ardıcıllıqla hazırlayır. |
| 3. Jileti tikir. |
| 4. Tekstil məmulatlarını hazırlayır. |
| **Təlim nəticəsi 6: Tikiş istehsalının təşkili haqqında bilir və müəyyən təmir işlərini yerinə yetirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Təcrübə, hazırlıq, biçim istehsalının əməliyyatları haqqında məlumat verir. |
| 2. Tikiş məmulatlarının yoxlanılmaqla hazırlanma ardıcıllığını sadalayır. |
| 3. Tikiş məmulatlarını təmir edir. |
| 4. Standartlaşmanın mahiyyətini və məhsulun keyfiyyətinə nəzarəti izah edir. |
| 5. İş vaxtı itkisinin aradan qaldırılmasını nəzərə almaqla fəhlə əməyini mütərəqqi formada təşkil edir. |
| |
| **Modulun adı: Tikiş məmulatlarının konstruksiyası** |
| **Modulun kodu: 16** |
| **Modulun ümumi məqsədi:** Bu modulu bitirdikdən sonra tələbə müxtəlif növ tikiş məmulatlarını konstruksiya etməyi və ülgüləri hazırlamağı bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Tikiş məmulatlarının hazırlanması üçün konstruksiyanın sistem və metodlarını bilir və ölçü cədvəlini qurmağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Tikiş məmulatlarının təsnifatı və onlara qoyulan tələbləri sadalayır. |
| 2. Tikiş məmulatlarının konstruksiyasının sistem və metodlarını müəyyən edir. |
| 3. Bədən quruluşunun tiplərini seçir. |
| 4. Fərdi və kütləvi istehsalatda ölçülərin götürülməsi və şərti işarələrlə yazılma qaydasını tətbiq edir. |
| 5. Ölçmə işini dəqiq aparmaqla ölçü cədvəlini qurur. |
| **Təlim nəticəsi 2: Geyimin bazis torunu qurmağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |

| |
|---|
| 1. Yüngül geyimlərin konstruksiya edilməsində nəzərdə tutulan payların sahələr arasında bölünməsini müəyyən edir. |
| 2. Üst geyimlərin konstruksiya edilməsində nəzərdə tutulan payları sahələr arasında bölüşdürür. |
| 3. Məmulatın əsas ölçülərinə əsasən texniki hesablamanı aparır. |
| 4. Hesablama üsullarından istifadə etməklə geyimin bazis torunu qurur. |
| **Təlim nəticəsi 3: Müxtəlif növ tikiş məmulatlarının konstruksiya çertyojunu qurmaqla ülgüləri hazırlamağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Bel məmulatlarının konstruksiya çertyojunu qurmaqla ülgüləri hazırlayır. |
| 2. Çiyin məmulatlarının konstruksiya çertyojunu qurmaqla ülgüləri hazırlayır. |
| 3. Üst geyimlərinin konstruksiya çertyojunu qurmaqla ülgüləri hazırlayır. |
| 4. Tekstil məmulatlarını konstruksiya edir. |
| **Təlim nəticəsi 4: Müxtəlif formalı qolları və yaxalıqları konstruksiya etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Qolun bazis torunu qurur. |
| 2. Müxtəlif formalı qolların konstruksiya çertyojunu qurmaqla ülgüləri hazırlayır. |
| 3. Yaxalığın bazis torunu qurmaqla ülgüləri hazırlayır. |
| 4. Müxtəlif formalı yaxalıqları konstruksiya edir. |
| **Təlim nəticəsi 5: Ülgülərin hazırlanması və texniki artırılma üsullarını bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Ülgülərin növlərini və hazırlanması üçün lazımi materialları təsvir edir. |
| 2. Ülgülərin standartlara uyğunluğunu müəyyən etməklə texniki artırılma üsullarını izah edir. |
| 3. EHM-i tətbiq etməklə ülgülərin çoxaldılmasını təsvir edir. |

| |
|---|
| **Modulun adı**: **Dərzi işinin planlaşdırılması** |

| |
|---|
| **Modulun kodu: 17** |
| **Modulun ümumi məqsədi:** Modulu tamamladıqdan sonra tələbə sifarişçidən qəbul etdiyi modeli bədii layihələndirməyi və modelləşdirməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: İş yerini planlaşdırır və hazırlıq işlərini həyata keçirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Sifarişçinin tələbinə uyğun mövcud standartlara əsasən hazırlıq işlərini yerinə yetirir. |
| 2. Modelə uyğun parçanın növünü təyin edir. |
| 3. Parçaya, rəngə və modanın tələbinə uyğun ipliyi seçir. |
| 4. Modelə uyğun olaraq furnitur və aksesuarları seçir. |
| 5. Modelə sərf ediləcək əsas və köməkçi materialları müəyyən edir. |
| **Təlim nəticəsi 2: Geyimin konstruksiyasının sistem və metoduna əsasən geyimə verilən tələbləri bilir.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Geyimin layihələndirilməsində konstruksiyasının sistemini və metodunu izah edir. |
| 2. Geyimin layihələndirilməsi zamanı bədii hissəsini təsvir edir. |
| 3. Geyimin layihələndirilməsi zamanı texniki hissəni izah edir. |
| 4. Geyimə verilən əsas tələbləri təyin edir. |
| **Təlim nəticəsi 3: Sifarişçinin istəyinə əsasən geyimin eskizini çəkir və ölçü işlərini həyata keçirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Bədən quruluşuna əsasən geyimin siluetlərini müəyyən edir. |
| 2. İnsanın yaşına və geyimin təyinatına əsasən konstruktiv və dekorativ xətləri göstərir. |
| 3. Verilən tələbə görə geyimin eskizini hazırlayır. |
| 4. Ölçü alətlərindən düzgün istifadə etməklə verilən təlimata əsasən ölçü götürür. |
| 5. Ölçüləri qaydalara əsasən yazır. |
| **Təlim nəticəsi 4: Eskizə əsasən hesablamaları aparmağı və çertyoju qurmağı bacarır** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Eskizə əsasən texniki və dekorativ payları müəyyən edir. |
| 2. Müəyyən edilmiş texniki və dekorativ paylara əsasən çertyojun qurulması üçün hesablamaları aparır. |
| 3. Bazis torunun əsasında geyimin çertyojunu qurur. |

| |
|---|
| 4. Modada baş verən dəyişiklikləri çertyojda tətbiq edərək hazırlayır. |

| |
|---|
| **Modulun adı: Biçmə və geyimin hazırlanma qaydaları** |
| **Modulun kodu: 18** |
| **Modulun ümumi məqsədi:** Bu modulu bitirdikdən sonra tələbə müştərinin sifarişinə uyğun olaraq tələb olunan forma və ölçülərdə müxtəlif növ geyimləri tikməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Çertyojdan alınan ülgünün parça üzərində rasional yerləşdirilməsini bacarır** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Geyimin hissə və hissəciklərini və onların konstruktiv xətlərini müəyyən edir. |
| 2. Çertyoja əsasən əsas və köməkçi ülgüləri hazırlayır. |
| 3. Döşənmə üçün parçanın növünün arğac və əriş istiqamətini müəyyən edir. |
| 4. Texniki şərtlər əsasında parça itkisi minumum olmaq şərti ilə ülgünü döşəyir. |
| **Təlim nəticəsi 2: Yaşına və cinsinə görə müxtəlif modalı bel geyimlərinin hazırlanma ardıcıllığını bilir və müvafiq əməliyyatları yerinə yetirməyi bacarır** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Bel geyimlərini çeşidlərə ayırır. |
| 2. Seçilmiş modaya uyğun olaraq bel geyimlərini hazırlamaq üçün avadanlıqları seçir. |
| 3. Kişi və qadınlar üçün müxtəlif modalı şalvarları texnoloji ardıcıllığa əsasən hazırlayır. |
| 4. Müxtəlif çeşidli ətəkliklərin texnoloji hazırlanma qaydalarını sadayalır. |
| 5. Kəmərli bel geyimlərinin müxtəlif növlərini hazırlayır. |
| 6. Kəmərsiz bel geyimlərini köbələrlə hazırlayır. |
| **Təlim nəticəsi 3: Müxtəlif çeşidli çiyinli geyimləri texnoloji ardıcıllığa əsasən bilir və hazırlamağı bacarır** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Çiyinli geyimləri yaşa və mövsümə əsasən növlərə ayırır. |
| 2. Müxtəlif modalı yüngül geyimləri texnoloji ardıcıllıqla hazırlayır. |
| 3. İsti araqatlı üst geyimlərinin texnoloji ardıcıllığını təsvir edir. |
| 4. Üst geyimləri hazırlayan zaman xüsusi maşınların xüsusiyyətlərini sayır. |

| |
|---|
| 5. Sadə üst geyimlərini texnoloji ardıcıllıqla hazırlayır. |
| 6. Astarlı çiyin geyimlərini hazırlayır. |
| **Təlim nəticəsi 4: Sifarişçinin istəyini və ehtiyac olan vaxt geyimdə təmir üsullarını müəyyənləşdirir və tətbiq etməyi bacarır** |
| **Qiymətləndirmə meyarları** |
| 1. I və II yoxlamanı yerinə yetirir. |
| 2. Yoxlamaya əsasən görüləcək işləri dəqiqləşdirir. |
| 3. Geyimdə təmir üsullarını müəyyən edir. |
| 4. Geyimi sifarişə uyğun təmir edir. |
| **Təlim nəticəsi 5: Dərzi işini yerinə yetirən zaman texniki təhlükəsizlik qaydalarını bilir və qaydalara əməl etməyi bacarır** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Biçim prosesində istifadə olunan avadanlıqlarla işləyən zaman texniki - təhlükəsizlik qaydalarını təsvir edir. |
| 2. İsitmə-nəmləndirmə əməliyyatını yerinə yetirən zaman texniki- təhlükəsizlik qaydalarını sadalayır. |
| 3. Tikiş avadanlıqları ilə işləyən zaman təhlükəsizlik qaydalarını təsvir edir. |
| 4. Tikiş istehsalında texniki- təhlükəsizlik qaydalarına əməl edir. |

| |
|---|
| **Modulun adı: Tamamlama və təqdimat işləri** |
| **Modulun kodu: 19** |
| **Modulun ümumi məqsədi**: Bu modulu tamamlandıqdan sonra tələbə hazırlanmış məmulatda son tamamlanma işlərini və etik qaydalara riayət etməklə təqdim etməyi bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Geyimdə tələb olunan bəzək işlərini yerinə yetirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Bədii tikmə üsulu ilə geyimi bəzəyir. |
| 2. Geyimdə applikasiyasiyanı tətbiq edir. |
| 3. Muncuqlarla müxtəlif bəzək işlərini görür. |

| |
|---|
| 4. Parça və dəridən müxtəlif bəzək elementləri hazırlayır. |
| **Təlim nəticəsi 2: Geyimdə müxtəlif çeşidli bağlama furnituraları ilə müxtəlif növ bağlama yerlərini hazırlamağı bacarır** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Modaya uyğun olaraq bağlama yerlərini qeyd edir. |
| 2. Furnitura növündən asılı olaraq bağlama yerini hazırlayır. |
| 3. Dekorativ üsulları tətbiq etməklə bağlama yerini hazırlayır. |
| 4. Hazırlanmış bağlama yerinin düzgünlüyünü yoxlayır. |
| **Təlim nəticəsi 3: Hazır geyimdə son isitmə-nəmləndirmə əməliyyatını (İ.N.Ə) yerinə yetirir və məmulatı sifarişçiyə təqdim etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Geyimi saplardan və təbaşir tozlarından təmizləyir. |
| 2. İsitmə- nəmləndirmə əməliyyatını yerinə yetirmək üçün avadanlığı seçir. |
| 3. Geyimdə yekun isitmə- nəmləndirmə əməliyyatını yerinə yetirir. |
| 4. Geyimdə isitmə- nəmləndirmə əməliyyatı zamanı nöqsanlar əmələ gəldiyi təqdirdə yox edir. |
| 5. Hazır geyimi sifarişçiyə təqdim edir. |

| |
|---|
| **Modulun adı: İstehsalat təlimi** |
| **Modulun kodu: 20** |
| **Modulun məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə sifarişçidən qəbul etdiyi modeli texnoloji ardıcıllıqla hazırlamağı bacaracaqdır. |
| **Təlim nəticəsi 1: Dərzi emalatxanasında əmək təhlükəsizliyinə əməl etməklə işi təşkil etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarı** |
| 1. Emalatxanada əl işi üçün iş yerinində əmək təhlükəsizliyi qaydalarını bilir əməl edir. |
| 2. .Maşın işlərini yerinə yetirmək üçün iş yerini təhlükəsizlik qaydalarına əməl etməklə təşkil edir. |
| 3. Dərzi alət və avadanlıqlarını işin növünə əsasən seçir istifadə edir. |
| 4. Tikiş avadanlıqlarının istifadəsi zamanı əmək təhlükəsizliyinə əməl edir. |
| **Təlim nəticəsi 2: Muncuqlarla, bədii tikmələrlə bəzək elementləri hazırlamağı bacarır** |

| |
|---|
| **Qiymətləndirmə meyarları** |
| 1. Bədii tikmələr üçün materialları seçir; |
| 2. Naxışları parcaya köçürür və bəzək elementləri hazırlayır; |
| 3. Muncuqları növlərə ayırır və onlarla işləyir; |
| 4. Aplikasiyalar hazırlayır, dəri elementləri ilə geyimləri bəzəyir; |
| **Təlim nəticəsi 3 : Geyimi ölçülərinə əsasən layihəndirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarı** |
| 1. Geyimin təsvirini sifarişçinin arzusuna uyğun çəkir. |
| 2. Modanın tələblərinə əsasən bədən ölçülərini ölçür. |
| 3. Geyimin materialının xüsusiyyətlərini nəzərə alaraq hissələrinin biçilməsini yerinə yetirir. |
| 4. Geyimin modaya uyğun cizgilərini çəkən zaman əlavə payları nəzərə alır. |
| 5. Modaya uyğun ülğüləri hazırlayır. |
| **Təlim nəticəsi 4: Geyimlərin hazırlanmasını texnoloji ardıcılıqla yerinə yetirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarı** |
| 1. Geyimi hissələrini tikiş üçün hazırlamağı bacarır. |
| 2. Geyimi texnoloji ardıcıllıqla tikir. |
| 3. Geyimdə modaya müvafiq bəzək elementlərini işləyir. |
| 4 Müxtəlif təyinatlı geyimləri hazırlayır. |
| 5 Hazır geyimdə tamamlama işlərini yerinə yetirir. |
| 6 Müştəriyə sifarişi təqdim edir |
| **Təlim nəticəsi 5: Düz tikişli məkikli toxunmalı bərkidici tikiş maşınlarının texnoloji xarakteristikasını bilir və idarə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Məkikli tikiş sırasının xüsusiyyətlərini sadalayır. |
| 2. Məkikli tikiş sırasının alınma prinsipini izah edir. |
| 3. Düz tikişli birxətli iki saplı məkik toxumalı maşının texniki xarakteristikasını təsvir edir. |
| 4. İki saplı məkik toxumalı tikiş maşınını idarə edir. |
| **Təlim nəticəsi 6: Sapdırıcı iynəli tikiş maşınlarının texnoloji xarakteristikasını bilir və idarə edən zaman tikişdə yaranan nöqsanları aradan qaldırmağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |

| |
|---|
| 1. İki paralel tikiş arasında məsafəsi tənzimlənən maşının texnoloji xarakteristikasını müəyyən edir. |
| 2. Dar ixtisaslaşmış tikiş maşınlarının tiplərini izah edir. |
| 3. İki iynəli (iş prosesində lazım gələrsə iynənin birini dayandırmaqla) işləyən maşının iş prinsipini izah edir. |
| 4. Tikişdən əmələ gələn nöqsanları aradan qaldırır. |
| **Təlim nəticəsi 7: Zəncirvarı toxumalı tikiş maşınlarının texnoloji xüsusiyyətlərini bilir və idarə etməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Bir saplı zəncirvari toxumalı tikiş maşınlarının texnoloji xüsusiyyətlərini təsvir edir. |
| 2. İki saplı zəncirvari toxumalı tikiş maşınlarının iş prinsipini izah edir. |
| 3. Üç saplı zəncirvari toxumalı tikiş maşınlarını idarə edir. |
| 4. Zəncirvari toxumalı tikiş maşınlarının xüsusiyyətlərini izah edir. |
| 5. Fərdi elektrik ötürücüsü, avtomatlaşdırılmış elektrik ötürücüsü haqqında biliklərini nümayiş etdirir. |

| |
|---|
| **Modulun adı: İstehsalat təcrübəsi (iş yerində təcrübə)** |
| **Modulun kodu: 21** |
| **İş yerində öyrənmənin ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə sifarişçidən qəbul etdiyi modeli texnoloji ardıcıllıqla hazırlamağı bacaracaqdır. |
| **Hüquqi şərtlər və müqavilə:** |
| **Təlim nəticəsi 1: Geyimi hazırlamaq üçün görüləcək işləri planlaşdırmağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Sifarişçinin istəyinə görə geyimin eskizini çəkir. |
| 2. Geyimin hazırlanmasında istifadə olunan ləvazimatları seçir. |
| 3. Verilən təlimata əsasən ölçü götürür. |
| 4. Ölçüləri qaydalara əsasən yazır. |
| 5. Eskizə əsasən texniki və dekorativ payları hesablayır. |
| **Təlim nəticəsi 2: Sifariş olunan geyimin ölgüsünü hazırlamağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |

| |
|---|
| 1. Geyimi layihələndirmək üçün üsulu seçir. |
| 2. Geyimin çertyojunun qurulması üçün hesablamaları aparır. |
| 3. Geyimin bazis torunu qurur. |
| 4. Bazis torunda sifariş olunan geyimə əsasən modelləşdirməni icra edir. |
| 5. Çertyoja əsasən ülgüləri hazırlayır. |
| **Təlim nəticəsi 3: Geyimləri texnoloji ardıcıllığa əsasən hazırlamağı bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Texniki şərtlərə görə ülgünü parça üzərinə döşəyir. |
| 2. Bel geyimlərinin hissələrini yoxlamaya hazırlayır. |
| 3. Yoxlamadan sonra geyimi texnoloji ardıcıllığa əsasən tikir. |
| 4. Çiyinli geyimlərin hissələrini seçir. |
| 5. Çiyinli geyimləri yoxlamaya hazırlayır. |
| 6. Çiyinli geyimləri ardıcıllıqla tikir. |
| **Təlim nəticəsi 4: Tamamlama, bəzək və təmir işlərini yerinə yetirməyi bacarır.** |
| **Qiymətləndirmə meyarları** |
| 1. Sifarişə uyğun olaraq bəzək işlərini yerinə yetirir. |
| 2. Geyimdə kiçik təmir işlərini yerinə yetirir. |
| 3. Geyimdə orta və böyük təmir işlərini görür. |
| 4. Geyimi yenidən hazırlayır. |
| 5. Geyimdə yekun nəmlənib isidilmə əməliyyatını yerinə yetirir. |
| 6. Geyimdə yekun tamamlama işlərini yerinə yetirir. |

## Təhsil proqramlarına dair qeydlər

1. Ümumi orta təhsil bazasından qəbul olunmuş və texniki peşə təhsili ilə yanaşı, tam orta təhsil alanlar üçün təşkil edilən qruplarda peşə təhsilinin dövlət standartında göstərilmiş “Ana dilində ünsiyyət” səriştəsi “Azərbaycan dili”, “Xarici dildə ünsiyyət” səriştəsi “Xarici dil”, “İnformasiya texnologiyaları” səriştəsi “İnformatika”, “Hesablama əməliyyatlarını yerinə yetirmə” səriştəsi isə “Riyaziyyat” fənni proqramına inteqrasiya olunmuş şəkildə, həmçinin ixtisasın tələbləri nəzərə alınmaqla uyğunlaşdırılmış proqram əsasında tədris edilir.
2. Tələbələrin sayı 15 (on beş) və daha çox olan qruplarda müvafiq maddi-texniki baza və ixtisas müəllimləri olduğu halda aşağıdakı fənlərin tədrisi 2 (iki) qrupa bölünə bilər:
    - 2.1. tədris digər dillərdə aparılan siniflərdə “Azərbaycan dili - dövlət dili kimi”;
    - 2.2. tədris dilindən asılı olmayaraq bütün siniflərdə “Xarici dil”, “Fiziki tərbiyə”.
    - 2.3. “İnformatika” fənni üzrə praktiki məşğələlər.
3. İnformatika kabineti olmayan peşə təhsili müəssisələrində “İnformatika” fənni üzrə praktik məşğələ keçirilmir.
4. “Xarici dil” fənnində tədrisi nəzərdə tutulan xarici dilin seçimi zamanı tədris qruplarında təhsil alan tələbələrin mütləq çoxluğunun nəzərə alınaraq ümumtəhsil pilləsində təhsil aldıqları “əsas xarici dil” əsas götürülür.
5. Tədris ilinin birinci yarısında qrupda tələbələrin sayının azalması tədris planı ilə müəyyən edilmiş müvafiq fənlərin tədrisində qrupun iki qrupa bölünməsinə məhdudiyyət yaratmır.
6. Pilot peşə təhsil müəssisələrində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 mart tarixli 86 nömrəli qərarı ilə təsdiq edilmiş “Peşə təhsili müəssisələrinin ayrı-ayrı peşə istiqamətləri üzrə tədris qruplarında orta sıxlığın müəyyən edilməsi haqqında” qərarın 3-cü bəndinə uyğun olaraq tədris qruplarında təhsilalanların sayı 16 nəfərdən çox olduqda, laboratoriya və istehsalat təlimi dərslərində qruplar 2 yarımqrupa bölünə bilər. Pilot peşə təhsil müəssisələrinin siyahısı Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.
7. Pilot peşə təhsili müəssisələrində və pilot layihələrdə “Peşə təhsili haqqında” qanunun 11.2. maddəsinə müvafiq olaraq işəgötürənlərin istehsalat təcrübəsinə rəhbər təyin etdiyi mütəxəssislərə təhsil müəssisəsi tərəfindən təcrübə saatları üçün nəzərdə tutulmuş haqq ödənilə bilər. Pilot peşə təhsil müəssisələri və pilot layihələrin siyahısı Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.
8. Nəqliyyat vasitələri sürücülərinin hazırlanması həyata keçirən ixtisaslar üzrə tədris Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli qərarı ilə təsdiq edilmiş “Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə” (mövcud dəyişikliklərlə) əsasında, həmçinin

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırılmış, Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş müxtəlif kateqoriyalı avtomobil nəqliyyatı vasitələri sürücülərinin hazırlanması üçün mövcud tədris plan və proqramlarına uyğun aparılır.

9. Traktorlar və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün sürücü hazırlayan ixtisaslar üzrə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının 30 may 2012-ci il tarixli 05/2012-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Traktorlar və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün imtahanların qəbulu və sürücülük vəsiqəsinin verilməsi haqqında təlimat” (mövcud dəyişikliklərlə) və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli qərarı ilə təsdiq edilmiş “Nəqliyyat vasitələri sürücülərinin hazırlanması və onların ixtisasının artırılması kursları haqqında Əsasnamə” (mövcud dəyişikliklərlə) əsasında, həmçinin traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün sürücülərin hazırlanması və onların ixtisasının artırılması proqramı üzrə təlim kursunun tələblərinə uyğun aparılır.
10. Dual və axşam qrupları üçün hazırlanmış tədris planları tətbiq edilən peşə təhsil müəssisələri və qrupların (ixtisasların) siyahısı Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən müəyyən edilir.
11. Kənd təsərrüfatı istiqaməti üzrə olan ixtisasların bəzilərində seçmə modulu kimi təqdim olunan modullar seçilərkən regionun iqtisadi xüsusiyyəti nəzərə alınır.
12. STEM Mərkəzi yaradılmış peşə təhsil müəssisələrində tədris olunan bütün ixtisaslar üzrə həftədə 2 (iki) saat olmaqla “Stem” fənni əlavə olaraq tədris olunur.